İQTİSADİ İSLAHATLARIN
TƏHLİLİ VƏ KOMMUNİKASİYA
MƏRKƏZİ

Oktyabr 2017

# AZƏRBAYCAN İQTİSADİ İSLAHATLAR İCMALI



# Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi




Strateji Yol Xəritəsində qısa, orta və uzun müddət üzrə müəyyən edilmiş inkişaf perspektivlərini özündə əks etdirən məqsəd və hədəflərlə yanaşı, həmin məqsəd və hədəflərə nail olmaq üçün bir sıra prioritet və tədbirlər göstərilmiş, habelə əsas və digər icraçıların, icra müddətlərinin, nəticə indikatorlarının əks olunduğu təfsilatlı tədbirlər planı hazırlanmışdır.

"Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi" rəqabətli, şaxələndirilmiş, inklüziv və dayanıqlı iqtisadiyyatın qurulması təşəbbüslərinin tərkib hissəsi kimi hazırlanmışdır. Bu Strateji Yol Xəritəsi logistika və ticarət sahəsində iqtisadi inkişaf üzrə Azərbaycanın 2020-ci ilədək, 2025-ci ilədək və 2025-ci ildən sonrakı dövr üçün qısa, orta və uzunmüddətli perspektiv istiqamətlərini müəyyən edir.

Strateji Yol Xəritəsində müəyyən edilmiş prioritetlərdə dövlət-özəl tərəfdaşlığı üzrə investisiya qoyuluşlarının zəruriliyi qeyd edilmiş və bu prioritetlərin təsirləri üzrə müəyyən ilkin hesablamalar aparılmışdır. Eyni zamanda, prioritetlər üzrə tədbirlərdə icraçı qismində müəyyən edilmiş aidiyyəti qurumların fəaliyyəti əlaqələndirilməli və müvafiq zaman çərçivəsində davam etməlidir.

## QLOBAL TRENDLƏR

Ticarətdə hazırkı qlobal istiqamətlərə təkan verən üç mühüm trend mövcuddur və əlavə dəyər əldə etmək üçün bu trendlərə xüsusi diqqət yetirilməlidir.

• Birincisi, makroiqtisadi amillər ölkələrarası ticarət həcminin artırılmasına müsbət təsir göstərir. Son iyirmi il ərzində açıq bazarlara və liberal ticarətə əsaslanan inkişaf başlıca iqtisadi artım modeli olmuşdur. Ümumdünya Ticarət Təşkilatının (ÜTT) dəstəklədiyi islahatlar çərçivəsində ticarəti asanlaşdıran qlobal sazişlər bu istiqamətləri daha da sürətləndirmişdir. Nəticə etibarilə, ticarət qlobal ÜDM-in artım tempindən daha sürətlə inkişaf edir.

• İkincisi, sektor və şirkət səviyyəsində olan amillər də istehsal seqmentlərinin coğrafi bölgüsünü yaxşılaşdırır. Belə ki, bir tərəfdən şirkətlər yeni və inkişaf etməkdə olan bazarlardakı artım imkanlarından faydalanmaq üçün öz fəaliyyətlərini yeni coğrafi məkanlara keçirir, digər tərəfdən isə aşağıxərcli istehsal imkanlarından faydalanmaq üçün istehsal əməliyyatlarını genişləndirirlər. Qlobal dəyər zəncirlərinin inkişaf etməsi və şaquli ixtisaslaşmanın dərinləşməsi bu meyilləri daha da gücləndirir.

• Üçüncüsü, bəzi təkanverici mexanizmlərin inkişafı makro və mikrosəviyyəli amilləri dəstəkləyir. Şübhəsiz ki, informasiya və kommunikasiya texnologiyalarının inkişafı bu mənada əsas amillərdən biri hesab oluna bilər. Ticarətin maliyyələşdirilməsi sahəsində inkişaf və yeni maliyyələşdirmə alətlərinin hazırlanması da ticarət həcmlərinin genişlənməsinə təkan vermişdir.

Bir çox dünya ölkələri dəniz, quru yolu, dəmir yolu daşımalarında logistika mərkəzləri vasitəsilə əlavə dəyər yaratmaqla iqtisadi faydalar əldə etməyə çalışırlar. Dünyanın ən qabaqcıl təcrübələrinə əsasən logistika mərkəzləri vasitəsilə əlavə dəyər yaradılmasının üç əsas uğur amili vardır:

• Birincisi, dəyərin yaradılması üçün, seçilmiş təchizat zəncirlərində tarazlaşdırılmış inkişafın daha çox səmərə verməsi nəzərə alınmaqla, infrastruktur və xidmətlər bərabər şəkildə inkişaf etdirilməlidir.

• İkincisi, logistika mərkəzlərinə investisiya qoyuluşları üçün aydın strategiyanın və düşünülmüş planlaşdırmanın olması vacib amillərdir. Yüksək potensiallı mərkəzlərin tikintisinin irihəcmli investisiya qoyuluşları tələb etdiyini nəzərə alaraq qeyd etmək olar ki, əvvəlcədən müvafiq risk qiymətləndirməsi aparılması zəruridir.

• Üçüncüsü, bir qayda olaraq, logistika mərkəzlərinin tikintisi zamanı bütövlükdə təchizat zəncirinin optimallaşdırılmasını həyata keçirə biləcək mövqedə özəl sektor iştirakçısı mövcud olmur. Həmçinin adətən, bütövlükdə, təchizat zəncirlərinə münasibətdə logistikanın düzgün optimallaşdırılmasını bilən üçüncü tərəf kimi güclü logistika şirkətlərinin çatışmazlığı hiss olunur. Dövlətin nəzarəti ilə təchizat zənciri komponentlərinin, o cümlədən gömrük və birbaşa xarici investisiyalar bazasının olması logistika sisteminin yaradılmasına və inkişafına təsir edən amillərdəndir.

## MÖVCUD VƏZİYYƏTİN TƏHLİLİ

Azərbaycanın coğrafi mövqeyi ticarət həcmlərinin müntəzəm artırılmasına imkan verir. Ölkənin logistika aktivlərinin daim inkişaf etdirilməsi onun regional və beynəlxalq ticarətdə rolunun artmasına təkan verəcəkdir. Belə ki, həm Şərq-Qərb dəhlizi,

həm də Şimal-Cənub dəhlizi üzərindəki əlverişli coğrafi mövqeyi sayəsində ölkəmiz həm tranzit ticarəti, həm də idxal-ixrac əməliyyatlarından pay əldə etmək imkanına malikdir. Yeni liman və dəmir yolları ilə bağlı bir sıra mühüm infrastruktur layihələri artıq yekunlaşmaq üzrədir. Bu aktivləri və üstünlükləri nəzərə alaraq, Azərbaycanın ərazisində intermodal və multimodal (müxtəlif nəqliyyat növlərinin ehtiva edilməsi) logistika infrastrukturunun yaradılması vasitəsilə ticarət həcminin artırılması, tranzit ticarətindən daha çox dəyərin əldə edilməsi və logistika sahəsində özəl sektorun iştirak səviyyəsinin artırılması məqsədilə bir sıra təşəbbüslər həyata keçiriləcəkdir.

## Azərbaycanın ticarət-nəqliyyat aktivlərinin hazırkı vəziyyəti

Azərbaycan ərazisindən beynəlxalq daşımalar, əsasən dəmir yolu vasitəsilə həyata keçirilir. Bu daşımalarda idxal və ixrac əməliyyatlarının həcmi yüksək, yüklərin son təyinat məntəqəsinə çatdırılmazdan əvvəl aralıq məntəqəyə daşındığı tranzit yükdaşımaların həcmi isə nisbətən aşağıdır. 2015-ci ildə Azərbaycanın ərazisindən dəmir yolu ilə daşınan yüklərin ümumi həcmində tranzit yüklərin payı 23 faiz olmuşdur. Müqayisə üçün qeyd etmək olar ki, həmin dövrdə Gürcüstanda dəmir yolları ilə daşınan yüklərin 71 faizini tranzit yüklər təşkil etmişdir

Bununla belə, Azərbaycan limanlarında tranzit yük daşıması üstünlük təşkil edir. Daşınan yüklərin əksər hissəsini kömür, emal edilmiş neft məhsulları, koks, mineral məhsullar, kənd təsərrüfatı malları, xam neft şəklində maye yükləri təşkil etmişdir. Bununla yanaşı, həm dəmir yolları, həm də limanlarda konteyner daşımaları nisbətən məhduddur.

Mövcud güclü cəhətlərə və imkanlara əsaslanaraq, Azərbaycanın 2025-ci ildən sonrakı dövrdə logistika və ticarət sahəsində hədəfi başqa ölkələrlə güclü əlaqələrə malik olmaqla səmərəli fəaliyyət göstərən logistika mərkəzləri vasitəsilə regional əhəmiyyətli logistika və ticarət qovşağına çevrilməkdir. Bu məqsədlə, Azərbaycanda beynəlxalq bazarlarla yaxşı əlaqəli olan logistika və ticarət mərkəzləri formalaşdırılacaqdır. Belə mərkəzlərdə əməliyyatların səmərəliliyinin təmin edilməsi üçün ən qabaqcıl rəqəmsal əməliyyat modelləri tətbiq ediləcək, keçid prosesinin sürətləndirilməsi məqsədilə bu sahədə həm özəl sektorun iştirakı daha da stimullaşdırılacaq, həm də birbaşa xarici investisiyalar təşviq ediləcəkdir.

## Logistika və ticarət sahəsinin GZİT təhlili

### Güclü tərəflər

- ölkədə yeni liman kompleksinin tikintisi və qonşu ölkələrlə yeni dəmir yolu əlaqələrinin qurulması kimi bir sıra mühüm infrastruktur layihələrinin həyata keçirilməsi;
- qanunvericiliyə müvafiq olaraq müxtəlif güzəşt mexanizmlərinin mövcud olması.

### Zəif tərəflər

- logistika sahəsi üzrə ixtisaslı kadr potensialının az olması;
- əmək məhsuldarlığının yüksək olmaması;
- maliyyə çatışmazlığı, avadanlığın köhnə olması;
- marketinq, satış və paylama xidmətlərinin qənaətbəxş səviyyədə olmaması;
- müəssisələrdə müasir biznes modelinin qurulmaması;
- Xəzər hövzəsində üzən gəmilərin potensial yükgötürmə imkanlarının aşağı olması, Xəzər dənizində küləkli günlərin çoxluğu və dənizin dərinliyinin az olması.

### İmkanlar

- Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ərazisində azad iqtisadi zonanın və Heydər Əliyev Beynəlxalq Aeroportu ərazisində logistika qovşağının ("hub") yaradılması hesabına tranzit yüklər üzrə əlavə dəyərin yaradılması imkanları;
- logistika və ticarət sahəsinin inkişafına dövlət dəstəyinin olması;
- nəzərdə tutulmuş layihələrin dəstəklənməsinə xarici investorların cəlb edilməsi imkanlarının olması;
- ölkənin coğrafi baxımdan əlverişli mövqedə yerləşməsi və regional əhəmiyyətli logistika və ticarət qovşağına çevrilmək potensialı;
- regionda və dünyada ticarət həcminin artması və rəqabətin yüksəlməsi;

- böyük regional bazarlara yaxınlıq;
- İran üzərindən iqtisadi sanksiyaların götürülməsi ilə İranı Rusiya və İranı Avropa ilə birləşdirən Şimal-Cənub nəqliyyat dəhlizinin işə salınması, İran, Hindistan və Pakistan mallarının Azərbaycan üzərindən bu dəhliz vasitəsilə Avropaya daşınması imkanlarının yaradılması

**Təhlükələr**

- maliyyə bazarlarında durğunluğun olması;
- neftin qiymətində kəskin azalma nəticəsində investisiya fəallığının zəifləməsi ehtimalı;
- xarici investorlar üçün əsas amillərdən biri olan valyuta məzənnəsinin sabitliyi problemi;
- infrastruktur layihələrinin tikilib başa çatdırılmasında ləngimələrin olması;
- Avropanı Orta Asiya və Çinlə birləşdirən Şərq-Qərb dəhlizinə alternativ olan Transsibir, Transsibir-Qazaxıstan və dəniz daşımaları kimi marşrutlar, habelə İranla Türkmənistanın dəmiryol xətlərinin birləşdirilməsi ilə dəhlizdə güclü rəqabətin yaranması.

## STRATEJİ BAXIŞ

**<u>2020-ci ilədək strateji baxış</u>**

2020-ci ilədək olan dövr üçün logistika və ticarət sahəsi üzrə Azərbaycanın strateji baxışı regional tranzit yüklərin cəlb edilməsi ilə yanaşı, həmin yüklər üzərində əlavə dəyərin yaradılmasına nail olmaqdır

**Strateji baxışın şərhi**

Müəyyən edilmiş strateji hədəflərə əsasən, ölkənin güclü tərəflərindən və müvafiq imkanlarından istifadə edilməklə, aşağıdakı məsələləri əhatə edən yeddi prioritetin həyata keçirilməsi nəzərdə tutulur:

- uzunmüddətli perspektivdə Azərbaycanın regional əhəmiyyətli logistika və ticarət qovşağına çevrilməsi məqsədilə ölkə ərazisindən keçən tranzit dəhlizlərinin rəqabətqabiliyyətli vəziyyətə gətirilməsi ilə bağlı müvafiq səylərin gücləndirilməsi;
- Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisi daxil olmaqla azad ticarət zonasının fəaliyyətinin təşkili və planlaşdırılan azad ticarət zonaları üçün texniki-iqtisadi əsaslandırmaların hazırlanması;
- ticarət həcminin artırılması və Azərbaycan iqtisadiyyatının daha da şaxələndirilməsi üçün tranzit ticarətindən daha yüksək əlavə dəyərin əldə edilməsi.

Strateji Yol Xəritəsi çərçivəsində nəzərdə tutulmuş tədbirlərin icrası üçün təxminən 3160 milyon manat investisiya vəsaitinin tələb olunacağı proqnozlaşdırılır ki, bu da müvafiq texniki-iqtisadi əsaslandırmalar aparıldıqdan sonra dövlət-özəl maliyyələşdirmə mənbələri hesabına təmin ediləcəkdir.

**<u>2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış</u>**

Azərbaycanın 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı logistika və ticarət infrastrukturunun əhəmiyyətli dərəcədə təkmilləşdirilməsi və tənzimləyici stimullar sayəsində regionda bu sahə üzrə daha cəlbedici ölkə olmaq və mühüm qovşağa çevrilməkdir.

**Uzunmüddətli baxışın şərhi**

2025-ci ilədək olan dövr ərzində ölkənin regional əhəmiyyətli logistika və ticarət qovşağına çevrilməsi üçün regional miqyasda fəaliyyət göstərən şirkətlərin Azərbaycanda bazalarının yaradılması üzrə işlər görüləcək, investisiya qoyuluşlarının təşviqi məqsədilə biznes mühitinin əlverişliliyi təmin olunacaq və bu sahədə optimallaşdırılmış təklif və təşəbbüslər irəli sürüləcəkdir. Logistika və ticarət sahəsində güclü inkişafın təmin edilməsi yolu ilə Azərbaycan regional şirkətlər üçün logistika və ticarət mərkəzinə çevriləcəkdir.

İlk növbədə, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının Heydər Əliyev Beynəlxalq Aeroportunda və ölkənin daxili ticarət şəbəkəsinə çevik inteqrasiyasını təmin etməkdən ötrü avtomobil və dəmir yolu əlaqələri gücləndiriləcəkdir. Rayonlararası əlaqənin yaxşılaşdırılması məqsədilə avtomobil yollarının tikintisi və təmiri əsas prioritet olacaq, yükdaşıma həcmi iqtisadi səmərəliliyi təmin edəcək səviyyəyə çatdıqdan sonra dəmir yolu əlaqələri də qurulacaqdır.

Bu logistika və ticarət mərkəzində, prioritet vəzifə kimi, 2025-ci ilədək olan dövrdə ilkin və aralıq ərzaq məhsullarının emalı, əczaçılıq, əmtəəlik plastik materiallar və gübrə istehsalı kimi sahələrdə Azərbaycanın üstünlüyü təmin ediləcəkdir.

2025-ci ilədək Azərbaycanın logistika və ticarət sahəsi, əsasən, özəl sektorun investisiyaları ilə inkişaf etdiriləcəkdir. Bu istiqamətdə dövlət müəssisələri prioritetləşdirilməklə, özəl sektorun iştirakının artırılması istiqamətində davamlı tədbirlər həyata keçiriləcəkdir.

## 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış

Uzunmüddətli perspektivdə Azərbaycanın hədəf baxışı digər ölkələrlə güclü əlaqələri olan logistika və ticarət mərkəzlərini səmərəli idarə edərək, regionda mühüm qovşağa çevrilməkdir.

### Hədəf baxışın şərhi

2025-ci ildən sonrakı dövr üçün qarşıya qoyulmuş məqsədlər Heydər Əliyev Beynəlxalq Aeroportunun ərazisində yerləşən logistika qovşağına və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksinə daxil olan güclü logistika və ticarət mərkəzinə, eləcə də azad ticarət zonasına malik olmaqdır. Orada əsas nəqliyyat şirkətləri ilə yanaşı, qablaşdırma, saxlama və emal kimi əlavə logistik funksiyaları həyata keçirən mərkəz və şirkətlər də yerləşəcəkdir. Həmin şirkətlər vergi güzəştləri əldə edəcək və gömrük rüsumlarından azad olunacaqlar ki, bu da şirkətlərin rəqabət qabiliyyətinin artırılmasına və istehsalyönümlü düşüncə tərzinin inkişafına təkan verəcəkdir.

Bu mərkəz daxilində müxtəlif uğurlu müəssisələrin fəaliyyətinin, xüsusilə də əməktutumlu əmtəə (məsələn, tekstil) və innovativ yüksək texnologiya məhsullarının (məsələn, əczaçılıq və maşın avadanlıqları) istehsalının genişləndirilməsi planlaşdırılır.

2025-ci ildən sonrakı dövr üçün qarşıya qoyulmuş vəzifələrin bir hissəsi kimi, ölkədə logistika şəbəkəsinin digər regionlarda da genişləndirilməsi davam etdiriləcəkdir. Həmin dövrə qədər Azərbaycanın sərhədləri boyunca logistika və ticarət mərkəzlərinin tikintisinin ikinci mərhələsi başa çatdırılacaq, logistika və ticarət müəssisələrinin regionlarda fəaliyyətinin stimullaşdırılması diqqət mərkəzində saxlanılacaqdır.

Ümumiyyətlə, Azərbaycanda logistika sahəsində özəl sektorun iştirak səviyyəsinin yüksəldilməsi əsas məqsədlərdən biri kimi müəyyən edilmişdir. İnfrastrukturu dövlət mülkiyyətində saxlamaqla, idarəetmədə özəl sektorun payının yüksəldilməsi, bununla da ölkə iqtisadiyyatında logistika sahəsinin səmərəliliyinin və əlavə dəyərinin artırılması, təchizat zəncirində aparılan əməliyyatların təkmilləşdirilməsi planlaşdırılır.

Logistika əməliyyatlarının idarə edilməsi sahəsində qabaqcıl texnoloji infrastruktur yaradılaraq istifadəyə veriləcəkdir. Xüsusi əmtəə növləri və nəqliyyat marşrutlarının xüsusiyyətlərinə dair müxtəlif mənbələrdən məlumatların toplanıb daxil ediləcəyi mərkəzi məlumat bazasına əsaslanan intellektual sistem vasitəsilə ölkədə yüklərlə bağlı müxtəlif əməliyyatlar səmərəli və mənfəətli şəkildə qiymətləndiriləcək, təhlil ediləcək və daha yaxşı idarə ediləcəkdir.

## HƏDƏF İNDİKATORLARI

Şərq-Qərb dəhlizi üzrə 2015-ci ildə 150 milyon ton həcmində tranzit yük daşınmasına baxmayaraq, Azərbaycanın buradakı payı kiçikdir. Orta Asiyanın Avropa ilə cari ticarət dövriyyəsi 40 milyon tona yaxındır və 2020-ci ildə bu göstəricinin 56 milyon tondan artıq olacağı proqnozlaşdırılır. Bu dəhliz üzrə Azərbaycan ərazisindən 2015-ci ildə cəmi 9,5 milyon ton tranzit yük daşınmışdır. Bundan əlavə, Şimal-Cənub dəhlizi boyunca Rusiya və İran arasında illik ticarət dövriyyəsi 4 milyon ton, İranla Qara dəniz hövzəsi ölkələri arasında 2,3 milyon tondur. Azərbaycana 2020-ci ilə qədər cəlb olunacaq tranzit yüklərin həcminin artırılması proqnozlaşdırılır.

Qeyd olunan dəhlizlərin potensialından maksimum istifadənin təmin edilməsi, eyni zamanda, logistika sahəsində infrastrukturun və digər işlərin yenidən qurulması və ya optimallaşdırılması nəticəsində:

- 2020-ci ildə Azərbaycanın real ÜDM-i 400 milyon manat birbaşa və 205 milyon manat dolayı olmaqla, ümumilikdə, 605 milyon manat artacaq;

- bilavasitə bu sahədə 10900 olmaqla, ümumilikdə, 18900 yeni iş yeri yaradılacaqdır.

Buna nail olmaq üçün 2020-ci ilədək aşağıdakı aralıq hədəflər müəyyən edilmişdir:

- region üzrə tranzit ticarət həcmini artıraraq aşağıdakı göstəricilərə müvafiq pay əldə etmək:
  - o Orta Asiya və Qara dəniz marşrutu üzrə 40 faiz;
  - o Orta Asiya və Avropa marşrutu üzrə 25 faiz;
  - o Çin və Avropa marşrutu üzrə 3 faiz;
  - o Rusiya və İran marşrutu üzrə 40 faiz;
  - o İran və Qara dəniz marşrutu üzrə 25 faiz.
- logistika və liman xidmətləri də daxil olmaqla, azad ticarət zonasının fəaliyyətinin təşkili;
- Azərbaycanda 5 və ya 6 logistika və ticarət mərkəzinin yaradılması (bu mərkəzlərdən dördü 2020-ci ilədək tamamlanmalıdır). Logistika və ticarət mərkəzinin birbaşa təsiri regional logistika və ticarət qovşağının ümumi təsirinin 20 faizinə bərabər olmalıdır
- hava yolları ilə əməliyyatlardan əldə edilən xalis gəlirin 5 faiz artırılması.

## STRATEJİ MƏQSƏDLƏR

- Qeyri-neft sektorunun inkişafı üzrə prioritet sahələrdən biri kimi logistika iqtisadiyyatın bütün digər sektorlarının bir-biri ilə əlaqələndirilməsində mühüm amil kimi çıxış edərək, bu sektorların irəliləməsində təkanverici qüvvə rolunu oynayır.
- Regionda əhəmiyyətli logistika və ticarət qovşağına çevrilmək məqsədilə tranzit yüklərin ölkə ərazisindən keçən nəqliyyat dəhlizlərinə cəlb olunması, bölgələrdə logistika və ticarət mərkəzlərinin yaradılması, istehsal və investisiya mərkəzi, eyni zamanda, yeni biznes, məşğulluq və əlavə dəyər imkanları qiymətləndirilərək, ölkənin cəlbediciliyinin artırılması.
- Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərində Azərbaycanın rəqabətqabiliyyətliliyini təmin etmək üçün idxal-ixrac əməliyyatlarına və tranzit yüklərin daşınmasına sərf olunan vaxt və xərclər optimallaşdırılmalı, sərhəd-keçid prosedurları sadələşdirilməli və beynəlxalq dəhlizlərboyu yol infrastrukturu genişləndirilməli və beynəlxalq standartlara uyğunlaşdırılmalıdır.

## STRATEJİ HƏDƏFLƏR

Azərbaycan Respublikasında loogistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi üzrə ümumilikdə 4 strateji hədəf olmaqla, hər bir strateji hədəf üçün müvafiq prioritetlər müəyyən edilmişdir. Bunlar aşağıdakı şəkildə təsnif edilə bilər.

**Strateji hədəf 1**

- Azərbaycan üzərindən ticarət həcminin artırılması üçün əlverişli mühitin yaradılması
- Azərbaycanın regional əhəmiyyətli logistika və ticarət qovşağı kimi aparıcı mövqeyinin gücləndirilməsi
- Bakı Limanı kompleksi, Bakı-Tbilisi-Qars dəmir yolu və Astara-Astara dəmir yolu layihələrinin tamamlanması
- Logistika sahəsində əməliyyatların təkmilləşdirilməsi

**Strateji hədəf 2**

- Tranzit ticarətindən daha yüksək dəyərin əldə edilməsi
- Bakının regional əhəmiyyətli ticarət qovşağına çevrilməsi
- Ticarətyönümlü emal mərkəzinin yaradılmas
- Bakıda və ölkənin müxtəlif yerlərində logistika və ticarət mərkəzlərinin yaradılması

**Strateji hədəf 3**

- Logistika və ticarət sahəsində məqsədlərin gerçəkləşdirilməsi üçün mühüm hərəkətverici mexanizmlərin tətbiqi
- Logistika sahəsində özəl sektorun iştirak səviyyəsinin yüksəldilməsi
- Logistika sahəsində özəl sektorun iştirak səviyyəsinin yüksəldilməsi üçün proqramın hazırlanması

## MALİYYƏLƏŞDİRMƏ MEXANİZMLƏRİ

Müəyyən edilmiş strateji hədəflərə nail olmaq üçün 3 milyard 160 milyon manat investisiya tələb olunur. Dövlət Strategiyasında nəzərdə tutulan tədbirlərin icrası aşağıdakı mənbələr hesabına maliyyələşdiriləcəkdir:

- dövlət büdcəsi;
- büdcədənkənar fondlar;
- Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti;
- yerli büdcələr;

- mülkiyyət formasından asılı olmayaraq yerli idarə, müəssisə və təşkilatların vəsaitləri;
- birbaşa xarici investisiyalar;
- ölkə bank sisteminin kreditləri;
- beynəlxalq təşkilatların və xarici dövlətlərin kreditləri, qrantları, texniki və maliyyə yardımı;
- qanunvericiliklə qadağan olunmayan digər mənbələr.

Maliyyə vəsaitlərinin müəyyən edilmiş prioritet hədəflər üçün ən səmərəli şəkildə sərf olunmasını təmin etmək məqsədilə büdcələr nəticələrə əsaslanan büdcə tərtibatı prosesi çərçivəsində işlənib hazırlanacaqdır.

## İCRA, MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ

Strateji Yol Xəritəsinin monitorinqi və qiymətləndirilməsi
Tələb olunan alətlər, proseslər və sairə vasitəsilə icranın uğurla həyata keçirilməsini təmin etmək üçün Strateji Yol Xəritəsinin monitorinqi və qiymətləndirilməsi həyata keçiriləcəkdir. Monitorinq və qiymətləndirmə aparılarkən tədbirlərin mahiyyəti üzrə icrasına, müvafiq prioritet üzrə gözlənilən nəticələrə və indikatorlara diqqət yetiriləcək, icra müddətinə uyğunluq yoxlanılacaqdır. Monitorinq və qiymətləndirmə beynəlxalq metodologiyalara əsasən tərtib edilmiş qaydalar əsasında aparılacaqdır.

İşçi qrupların illik iş proqramları koordinasiya qurumu ilə razılaşdırılaraq, əsas icraçı təşkilat tərəfindən təsdiqlənəcəkdir. İşçi qrupların rüblük iclasları koordinasiya qurumunun nümayəndələrinin iştirakı ilə keçiriləcəkdir.

Rüb üzrə görülmüş işlərə dair hesabat əsas icraçı təşkilat tərəfindən işçi qrupun rüblük iclasından ən azı 10 (on) gün əvvəl koordinasiya qurumuna təqdim ediləcəkdir. Koordinasiya qurumu qeyd olunmuş hesabatın hərtərəfli təhlili və qiymətləndirilməsini, həmçinin işçi qrupun rüblük iclasında baş tutmuş müzakirələri nəzərə alaraq, iclasın keçirilmə tarixindən 10 (on) gün müddətində rüblük monitorinqin nəticələrini və növbəti dövr üçün tövsiyələri əsas icraçı təşkilata təqdim edəcəkdir. Koordinasiya qurumu və əsas icraçı təşkilat monitorinq nəticələrinin və tövsiyələrin işçi qrupun gündəlik fəaliyyətində nəzərə alınması üçün tədbirlər görəcəkdir.


www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az
Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073
info@ereforms.org
(+994)12 5213318
/ iqtisadiislahat